UOT 338.43

Məhərrəm Cəlal oğlu HÜSEYNOV
i.e.d., prof., Azərbaycan Dövlət Aqrar Universiteti
Publik Hüquqi Şəxs
m.huseynov@adau.edu.az

Elçin Arif oğlu SALAHOV
i.f.d., dos. Azərbaycan Dövlət Aqrar Universiteti
Publik Hüquqi Şəxs
elchin.salahov@adau.edu.az

Niyaz Nizami oğlu MƏMMƏDOV
i.f.d., dos. (e.a.o.), Azərbaycan Dövlət Aqrar Universiteti
Publik Hüquqi Şəxs
niyaz.mammadov.30161@adau.edu.az

Gülçin Mərdan qızı TAHİROVA
Ass., Azərbaycan Dövlət Aqrar Universiteti
Publik Hüquqi Şəxs
gulchin.tahirova@adau.edu.az
10.30546/4.71.73001.2024.02

KƏND TƏSƏRRÜFATINA İNVESTİSİYA QOYULUŞLARININ MALİYYƏ MƏNBƏLƏRİNİN ROLU VƏ GENİŞLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - aqrar sahədə investisiya qoyuluşlarının maliyyələşməsi mənbələrinin mövcud vəziyyətinin araşdırılması, onların genişləndirilməsi istiqamətlərinin və bu istiqamətdə yaranan problemlərin müəyyən edilməsidir.

Metodologiya - müxtəlif mənbələrdən müəlliflər tərəfindən toplanmış faktlar homogen əlamətlərinə görə qruplaşdırılmış və həmin məlumatların müxtəlif metodlarla konkret təhlilləri aparılmışdır.

Tədqiqatın əhəmiyyəti - yetərli investisiya mənbələri aqrar sahədə iqtisadi və ərzaq təhlükəsizliyinin, rəqabətqabiliyyətli məhsul istehsalının təmin edilməsində, kənd təsərrüfatı məhsul istehsalçılarının gəlirlərinin artırılmasında açar rolu oynaya bilər.

Tədqiqatın nəticələri - tədqiqatdan əldə olunan nəticələr ölkənin kənd təsərrüfatında innovasiya prosesinin dinamikasına və investisiya qoyuluşlarının mənbələrinin genişləndirilməsinə müsbət təsir göstərə bilər.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - bu tədqiqatda kənd təsərrüfatına investisiya qoyuluşunun mənbələri qarşılıqlı əlaqədə təhlil edilmiş və mövcud problemlər araşdırılaraq konkret töhfələr verilmişdir. Elmi yenilik xarici investisiyaların maliyyə mənbəyi olmaqla yanaşı, yeni texnologiyaların mənimsənilməsində aparıcı rola malik olmasının, büdcə xərclərinin istiqamətinin investisiyaya yönəldilməsinın, maliyyə bazarlarının bu prosesə cəlb olunmasının öyrənilməsidir.

Açar sözlər: xarici investisiya, dövlət xərcləri, maliyyə bazarları, innovasiya, maliyyə mənbələri.

Giriş

Müasir dövrdə Azərbaycan iqtisadiyyatının genişmiqyaslı və gələcəyə vəd verən strateji sahəsi kimi kənd təsərrüfatı mərkəzi yerlərdən birini tutub. Bu məqsədə nail olmaq üçün kənd təsərrüfatı məhsul istehsalında əmək məhsuldarlığının artırılmasında ilk növbədə əsas kapitala investisiya qoyuluşu dayanır. Son illər (2016-2022) ərzində iqtisadiyyata qoyulan investisiyaların ümumi

həcmində kənd təsərrüfatının payı 2-4% aralığında dəyişmişdir [6, s.654]. Aydındır ki, Azərbaycanın kənd təsərrüfatına investisiya qoyuluşu beynəlxalq normalardan dəfələrlə aşağıdır və qənaətbəxş hesab oluna bilməz. Belə vəziyyətin əsas səbəbi Azərbaycanın kənd təsərrüfatında xırda təsərrüfatların mütləq üstünlük təşkil etməsidir. Təkcə onu demək kifayətdir ki, ümumi kənd təsərrüfatı məhsullarının 90%-i xırda təsərrüfatlarda istehsal olunur [6, s.27]. Xırda təsərrüfatlarda gəlirlərin aşağı səviyyəsi və amortizasiya fondunun məhdudluğu səbəbindən onların malyyə resurslarının yığımını qeyri-mümkün edərək investisiyaların böyük miqyasda həyata keçirilməsi qarşısında böyük maneə yaradır. Belə şəraitdə kənd təsərrüfatında əsas kapitala investisiya qoyuluşunda üç mənbə ön plana çıxır.

- Maliyyə bazarları investisiya mənbəyi kimi. İnkişaf etmiş ölkələrdə bu prosses cəlb olunmuş vəsaitlərin hesabına uğurla həyata keçirilir. Amma onu da qeyd etmək lazımdır ki, belə mənbə gəlirlərin səviyyəsinin müəyyən həcmindən sonra yarana bilər və əmanət formasında movcud olan yığımın investisiyaya çevrilməsi üçün əsas tələblərdən biri maliyyə bazarlarının işlək mexanizmə malik olmasıdır. Daxili yığımın investisiyaya transformasiya mexanizmi mövcud deyilsə, hətta gəlirlərin orta və yüksək səviyyədə olmasına baxmayaraq, belə mənbə innovasiya yönümlü investisiyaların maliyyə mənbəyi kimi çıxış edə bilməz.
- Birbaşa xarici investisiyalar İnkişaf etməkdə olan ölkələrdə xüsusi əhəmiyyətə malikdirlər. Çünki, maliyyə mənbəyi ilə bərabər belə investisiyalar eyni zamanda müasir texnologiyaların və avadanlıqların ölkəyə daxil olmasına şərait yaradır. Kənd təsərrüfatında xarici investisiyalar o zaman əhəmiyyətli olur ki, bu investisiyalar üçün müvafiq investisiya iqlimi yaradılsın. Belə investisiya iqlimi müvafiq sosial,iqtisadi və institusional şəraitdə yarana bilər.
- Dövlət büdcəsi hesabına investisiya mənbələrinin yaranması üçün büdcə gəlirlərinin həcmi müvafiq səviyyədə olmalıdır. İnkişaf etməkdə olan ölkələrdə büdcə xərcləri hesabına investisiyaların maliyyələşdirilməsinin səviyyəsi malik olduğu təbii resurslardan əldə olunan gəlirlərin səviyyəsi ilə birbaşa asılıdır.

Ümumiləşdirilmiş formada təsnifləşdirilmiş investisiyaların maliyyə mənbələri ilk növbədə ölkənin daxili investisiya axınına təsir göstərərək multiplikasiya effekti yaratması onlar arasındakı qarşılıqlı əlaqədən birbaşa asılıdır.

Ədəbiyyat xülasəsi

Əvvəla qeyd edək ki, dünyanın bütün inkişaf etməkdə olan ölkələri kənd təsərrüfatına qoyulan dövlət və birbaşa xarici investisiyaların qıtlığı ilə üzləşirlər [12,s.133-155]. Lakin kənd təsərrüfatı hər bir ölkədə strateji xarakter daşıdığından dövlət və xarici investisiyaların aqrar sahənin iqtisadi artımında, xüsusi ilə də bu artımın innovativ xarakter daşımasında rolu həlledicidir. Bu baxımdan hər iki mənbə kənd təsərrüfatının inkişafında mühüm makroiqtisadi amildirlər. Onlar kənd təsərrüfatında iqtisadi artımın etibarlı yanacaq mənbəyi kimi çıxış edərək, maliyyə və texnoloji resurslara çıxış imkanlarını asanlaşdırırlar [16, s.11-12]. Deməli aqrar sahənin daxilində yığımın minimal səviyyəsi səbəbindən dövlət xərcləri ilə xarici investisiyalar arasında düzgün seçimin və müvafiq nəzarətin təmin olunması kənd təsərrüfatının investisiyalara olan tələbinin maliyyələşdirilməsində əsaslandırıcı rol oynayır [18, s.57-58]. Elmi ədəbiyyatda birmənalı qəbul edilib ki, birbaşa xarici investisiyalar innovasiya "yatağıdır" və aqrar sahənin modernləşdirilməsində, kənd yerlərində geniş yayılmış işsizliyin minimallaşdırılmasında, gəlirlərin sabitləşdirilməsində və son nəticədə yoxsulluğun aradan qaldırılmasında əvəzolunmaz amillərdən biridir [17, s. 22-24]. Ancaq praktika göstərir ki, inkişaf etməkdə olan ölkələrin əksəriyyətində birbaşa xarici investisiyaların səviyyəsi müəyyən səbəblərdən çox aşağıdır. Bu səbəbdən də aqrar sahədə investisiya boşluğunun doldurulması və xarici investisiyaların stimullaşdırılması dövlət xərcləri hesabına reallaşdırıla bilər [11, s.15-17].


Xarici investisiyaların stimullaşdırılmasında yaranan zəruriyyət onunla əlaqədardir ki, qabaqcıl biliklərə və texnoloji üstünlüklərə əsaslanan inkişaf strategiyasının imkanları kənd təsərrüfatı məhsullarının istehsalında çox məhduddur. İnkişaf etməkdə olan ölkələrdə bu reallıq kənd təsərrüfatını geridə qalan sahəyə çevirir və o, nadir hallarda innovasiya siyasətinin mərkəzi nöqtəsi olur

[9, s.1929-1940;15, s.1330-1336]. Hesab edilir ki, iqtisadiyyatın digər sahələrindən fərqli olaraq, kənd təsərrüfatının öz-özlüyündə və ya təkbaşına ixtiralarla məşğul olmaq imkanı çox məhduddur. Onlar əsasən bilik və texnologiyaların digər sektorlardan transferinə üstünlük verirlər [10, s.42;13,s.25]. Belə vəziyyətin yaranmasının müxtəlif səbəbləri vardır: təsərrüfatların kiçik həcmi, gəlirlərin aşağı səviyyəsi, təhsil səviyyəsi, innovasiya mərkəzlərinə coğrafi məsafələrin uzaqlığı, risklərin yüksək dərəcəsi və s. Bununla yanaşı, kənd təsərrüfatını bütövlükdə əhatə edən rəsmi innovasiya mərkəzlərinin formal xarakter daşıması və müvafiq olaraq statistik innovasiya məlumatlarının olmaması bu sahədə aparılan təhlilə maneə törədir [14,s.35].

Kənd təsərrüfatında investisiyaların yayılması nöqteyi-nəzərindən baxdıqda birbaşa xarici investisiyalar bu prosesin “təməl daşını” yarada bilər.

Maliyyə bazarları investisiya mənbəyi kimi

İlk növbədə qeyd edək ki, inkişaf etmiş ölkələrdə ümumilikdə investisiya qoyuluşunun əsas mənbələrindən biri maliyyə bazarlarıdır. Maliyyə bazarlarının inkişaf səviyyəsi ölkənin inkişaf səviyyəsinin əsas barometridir. Bu baxımdan Azərbaycanda maliyyə bazarlarının inkişaf səviyyəsinin, əmanətlərin investisiyaya transformasiyasında rolunun araşdırılması eyni zamanda kənd təsərrüfatında investisiya prosesində maliyyə mənbəyi kimi iştirak etmək imkanlarını araşdırmağa şərait yaradır. Azərbaycanda maliyyə bazarlarında kredit resurslarının təklifi ilə əsasən dövlət və özəl banklar, o cümlədən xarici kapitallı banklar, bank olmayan kredit təşkilatları (BOKT) məşğul olur. Qrafik 2-də 2022-ci ildə bank və BOKT tərəfindən iqtisadiyyata kredit qoyuluşlarının sahələr üzrə strukturu təsvir edilmişdir. Qrafik 2-dən göründüyü kimi iqtisadiyyata qoyulan bank kreditlərinin tərkibində kənd təsərrüfatının payı cəmi 1% təşkil etmişdir. Maraqlı odur ki, sənaye və istehsal sektorunun payı cəmi 2%-ə bərabərdir. Diaqramdan göründüyü kimi banklar və BOKT-ların kredit resursları ilk növbədə ticarət və xidmət sektoru ilə yanaşı ev təsərrüfatlarına yönəldilmişdir və onların birlikdə payı 93% təşkil etmişdir.



Qrafik 2. 2022-ci ildə bank və BOKT tərəfindən iqtisadiyyata kredit qoyuluşlarının sahələr üzrə strukturu, %-lə

Mənbə: Qrafik AR Mərkəzi Bankı məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir.


Kredit resurslarının belə bölgüsü onu göstərir ki, istehsal sahəsi, o cümlədən kənd təsərrüfatı banklar üçün elə də böyük maraq doğurmur. Səbəbi isə onunla izah olunur ki, kredit resursları o sahələrə yönəlir, harada ki, kredit risklərinin səviyyəsi çox aşağıdır. Belə qənaətə gələ bilərik ki, investisiya qoyuluşunda əgər kreditləşmənin strukturunda mövcud meyillilik davam edəcəksə, bu

sektor kənd təsərrüfatı üçün maliyyə mənbəyi rolunda çıxış etmək imkanına malik olmayacaqdır. Deməli, maliyyə bazarlarının tərkib hissəsi olan bank sektorunda dövlət tərəfindən aparılan tənzimlənmə mexanizmi elə qurulmalıdır ki, kredit resurslarının istiqamətində əhəmiyyətli dəyişikliyə nail olmaq mümkün olsun.

Qiymətli kağızların ilkin və təkrar bazarlarında isə öz səhmlərini və istiqrazlarını yerləşdirən dövlət və korporativ müəssisələr iştirak edirlər. 2022-ci ildə korporativ müəssisələr tərəfindən Azərbaycanın Bakı Fond Birjasında qiymətli kağızlar (səhm və istiqrazlar) üzrə bağlanılan müqavilələrin sayı 4400, ümumi məbləği isə 2189.7 mln. manat təşkil etmişdir. Amma dövlət qiymətli kağızlarının satışı üzrə müqavilələrin sayı (2506 müqavilə) isə təqribən 2 dəfə az olmasına baxmayaraq məbləği 4 dəfə çox, 8312,8 mln. manat olmaqla ümumi məbləğdə payı 79.2% təşkil etmişdir. Korporatov qiymətli kağızların ilkin və təkrar bazarlarında həyata keçirilən əməliyyatların məbləği bir-birinə bərabərdir (ilkin bazar - 1007,9 mln. manat, təkrar bazar- 1181,9 mln. manat). Dövlət qiymətli kağızları üzrə keçirilən əməliyyatlarda isə ilkin bazar mütləq üstünlük təşkil edərək 7304,0 mln. manata bərabər olmuş, təkrar bazarı isə 1008,8 mln. manat təşkil etmişdir [1]. Diqqətlə fikir versək görərik ki, qiymətli kağızlar bazarının əsas iştirakçısı hazırda dövlətdir. Dövlətin maliyyə bazarlarının tərkib hissəsi olan qiymətli kağızlar bazarında belə aktiv iştirakı iqtisadi nəzəriyyədə məlum olan sıxışdırma effekti yaradır. Sıxışdırma effektinin mahiyyəti ondan ibarətdir ki, dövlətin payı maliyyə bazarlarında artdıqca iqtisadiyyata, o cümlədən, əsas kapitala yönələn investisiyaların məbləği azalır. Azərbaycanda qiymətli kağızlar bazarında dövlətin mütləq üstünlüyü o deməkdir ki, onsuz da məhdud olan maliyyə vəsaitlərinin yığımı iqtisadiyyata, o cümlədən kənd təsərüffatına, investisiya qoyuluşlarına transformasiyası əvəzinə büdcə kəsirinin bağlanmasına yönəlir. Bu Azərbaycanda maliyyə bazarlarının öz klassik funksiyasını yerinə yetirməsinə maneə törədir.

Xarici investisiyalar maliyyə mənbəyi kimi

Kənd təsərrüfatında investisiya qoyuluşunun digər mənbələrndən biri də xarici investisiyalardır. Xarici investisiyaların ümumilikdə Azərbaycan iqtisadiyyatında rolu çox böyük əhəmiyyət kəsb edir. Amma xarici investisiyaların iqtisadiyyatın sahələri üzrə quruluşu qeyri-bərabərdir və qeyri- proporsional formada paylanmışdır [3, s. 748].



Qrafik 5: 2021-ci ildə iqtisadi fəaliyyət növləri üzrə əsas kapitala yönəldilmiş xarici vəsaitlərin strukturu, faizlə

Mənbə: AR DSK məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir

Əsas kapitala investisiya qoyuluşunun quruluşunu nəzərdən keçirdikdə, aydın görünür ki, sənaye sahəsi liderdir və xarici investisiyaların 75%-i bu sahəyə yönəlmişdir. Digər sahələrdə isə xarici investisiyaların payı 1%-25% aralığında dəyişir [3, s.748]. Maraqlı isə odur ki, kənd

təsərrüfatı bu diaqramda yer almamışdır. Bu onunla izah olunur ki Azərbaycanın kənd təsərrüfatı xarici investorlar üçün elə də cəlbedici deyil. Kənd təsərrüfatında xarici investisiya adətən müəyyən layihələr çərçivəsində reallaşdırılır. Bu layihələr çərçivəsində qoyulan investisiyaların əsas məqsədi logistik xidmətlərin dəstəklənməsidir. Məsələn, 2014-2019-cu illər ərzində USAİD (ABŞ-ın Beynəlxalq İnkişaf Agetnliyi) tərəfindən “Kənddən şəhərə” layihəsi çərçivəsində Lənkəran şəhərinin İstisu qəsəbəsində yerləşən “Citrus Valley” fermer təsərrüfatına 5.5 mln. manat vəsait investisiya qoyulmuşdur. Lakin bu investisiya əsas kapitala yönəldilməmişdir, məhsulun daxili və xarici bazarlarda reallaşmasını sürətləndirən vəsait kimi istifadəsi nəzərdə tutulmuşdur [19].

Şübhəsiz ki, Azərbaycan dövləti kənd təsərrüfatında xarici investisiya qoyuluşunu hər zaman dəstəkləyir və onun qarşısında yaranan maneələri aradan qaldırmağa maraqlıdır. Hesab edirik ki, Azərbaycan dövlətinin kənd təsərrüfatı məhsul istehsalçılarını dəstəkləmək məqsədi ilə apardığı aqrar siyasət eyni zamanda xarici investorlara da şamil olunur. Güzəştli vergi siyasəti, müxtəlif məqsədlər üçün verilən subsidiyalar, məhsulların sığortalanması, satınalınma qiymətlərinin tətbiqi və s. həyata keçirilən dövlət siyasətinin stimullaşdırıcı alətləri xarici şirkətlər üçün də keçərlidir. Eyni zamanda Kənd Təsərrüfatı Nazirliyi tərəfindən xarici investorlar cəlb etmək üçün xüsusi platformalar hazırlanmalıdır. Məsələn, Türkiyədə xarici investorlar dövlət proqramları çərçivəsində verilən güzəştlərə əsasən İstanbul, Trabzon, Çanaqqala, Bursa və Antalya regionlarında çox həvəslə fermaları hazır formada satın alırlar. Xarici investorlar içərisində İran körfəzi ətrafı ölkələri Türkiyənin kənd təsərrüfatına qoyulan investisiyaların həcminə görə aparıcı mövqelərdə dayanırlar. Xarici şirkətlərin belə cəlb olunmasında əsas səbəb satışa qoyulan fermer təsərrüfatlarının qiymətinin dövlət tərəfindən sabit saxlanılmasıdır [7].

Yuxarıda apardığımız təhlildən aydındır ki, Azərbaycanda maliyyə bazarları və xarici investorların kənd təsərrüfatında investisiya qoyuluşunda maliyyə mənbəyi kimi rolu demək olar ki, sıfıra bərabərdir. Həmçinin, Azərbaycan üçün xarakterik cəhət odur ki, kənd təsərrüfatı göstərilən hər iki mənbədən tamamilə məhrumdur. Təsərrüfatların kiçik həcmi və müvafiq olaraq miqyas effektinin olmaması fərdi yığımın aşağı səviyyəsinə gətirib çıxardaraq, investisiya mənbəyi kimi istifadə edilməsinə imkan yaratmır.


Kənd təsərrüfatında investisiya qoyuluşunda dövlət xərcləri: üstünlüklər və çatışmazlıqlar

Təəccüblü deyil ki, belə yaranmış vəziyyətdə Azərbaycanın aqrar sektorunda əsas investor rolunda dövlət çıxış edir. Bu səbəbdən də aqrar sahədə dövlət maliyyələşdirilməsi digər mənbələrlə müqayisədə mütləq üstünlük təşkil edir.

Ümumilikdə 2021-ci ildə kənd təsərrüfatı xərcləri ÜDM-in 1,0 faizini, dövlət büdcəsi xərclərinin isə 3,3 faizini təşkil etmişdir. Son 5 ildə (2017-2021-ci illər) kənd təsərrüfatı xərcləri 404,2 milyon manat və ya 1,8 dəfə artmışdır [2, s.16] .

Dövlət büdcəsindən kənd təsərrüfatına ayrılmış vəsaitlərin sahələr üzrə təsnifatı çox böyük maraq doğurur.

İqtisadi təsnifata uyğun olaraq bu xərclər bölməsindən əməyin ödənişinə 121,9 milyon manat, malların (işlərin və xidmətlərin) satın alınmasına 242,7 milyon manat, subsidiyalara və sosial ödənişlərə 484,1 milyon manat (2020-ci illə müqayisədə 79,0 milyon manat və ya 19,5 faiz çox), qeyri-maliyyə aktivlərinin alınmasına (ötürücü qurğuların, maşın və avadanlıqların alınması, qurğuların əsaslı təmiri və s.) 61,7 milyon manat məbləğində vəsait yönəldilmişdir. Qrafik 7-də 2021-ci ildə dövlət büdcəsinin icrasına dair tərtib olunmuş hesabata əsasən kənd təsərrüfatı bölmələri üzrə icra edilmiş xərclərin payı faiz ilə ifadədə verilmişdir. Qrafikdən göründüyü kimi ən böyük paya 53% ilə subsidiyalar və sosial ödənişlər malikdirlər. Büdcə xərclərinin içərisində investisiya xərcləri qeyri-maliyyə aktivlərinin (maşın və avadanlıqlar, ötürücü qurğular, eləcə də qurğuların əsaslı təmiri) alınmasıdır. Təəssüf ki, qeyri-maliyyə aktivlərinin alınmasına yönələn investisiya xərcləri cəmi 7% təşkil etmişdir. Bu isə o deməkdir ki, baxmayaraq ki büdcə xərclərinin tərkibində kənd təsərrüfatı xərcləri öz əksini tapsa da, investisiya mənbəyi kimi elə də böyük rola malik deyil.



Qrafik 7: 2021-ci ildə dövlət büdcəsindən kənd təsərrüfatında bölmələr üzrə xərclərin icrasının strukturu, faizlə

Mənbə: AR Maliyyə Nazirliyinin 2021-ci il dövlət büdcəsinin icrasına dair illik hesabatı əsasında müəlliflər tərəfindən tərtib edilmişdir.

Ümumdünya Ticarət Təşkilatının (ÜTT) dövlətin kənd təsərrüfatına dəstək tədbirlərinin təsnifləşdirilməsinə müvafiq olaraq tədbirlər “sarı səbət”,“yaşıl səbət” və “mavi səbət” qruplarına ayrılır. Tədbirlərin bu səbətlərə ayrılması meyarı dövlət dəstəyinin məhsulların istehsalını və ticarətin təhrif edib və ya etməməsidir.

“Sarı səbət”-ə məhsulun qiymətinə və maya dəyərinə birbaşa və dolayı formada təsir göstərən tədbirlər sistemi aiddir. “Sarı səbət”-ə dövlət dəstəyinin səmərəsi az olan və reallığı təhrif edən tədbirlər daxildir. Belə tədbirlər qrupuna kənd təsərrüfatının subsidiyalaşdırılması, qiymət dəstəyi, götürülən kreditin faiz dərəcəsini kompensasiya etmək üçün subsidiyalaşdırılması, elektrik enerjisinə, yanacaq və motor yağlarına görə verilən kompensasiyalar və s. aiddir.

“Yaşıl səbət”-ə kənd təsərrüfatı məhsul istehsalı və ticarətində mövcud olan reallığı təhrif etməyən tədbirlər sistemi aiddir və bu tədbirlər məhdudiyyətsiz olaraq istifadə oluna bilərlər. Bu səbətə daxil olan tədbirlər qrupuna sahənin institusional inkişafını dəstəkləyən tədbirlər, məsələn kənd təsərrüfatı infrastrukturunun tikintisi, elmi tədqiqatların aparılması, innovativ texnologiyaların tətbiqi, kənd təsərrüfatına zərərvericilər ilə mübarizə, fermerlərə dəymiş zərərə ödənişlər (sığortalanma) və s. aiddir.

“Mavi səbət”-ə isə bitkiçilikdə məhsulun ifrat dərəcədə artmasının qarşısını almaq üçün əkin sahələrinin məhdudlaşdırılmasına, heyvandarlıqda isə heyvan sayının məhdudlaşdırılmasına yönələn tədbirlər daxildir. Belə tədbirlər sisteminə məhsulun həcmini məhdudlaşdırmaq məqsədi ilə subsidiyalaşdırma, məhsul istehsalına kvotaların tətbiqi və s. aiddir. ABŞ-da siderat bitkilərin (torpağı azot və üzvi maddələrlə zənginləşdirən, torpaqqoruyucu funksiyaya malik olan) əkilməsi vasitəsi ilə buğda istehsalının azaldılmasının subsidiyalaşdırılması buna misal ola bilər [8].

Hərçənd, Azərbaycan ÜTT-nin üzvü deyil, amma onun qəbul etdiyi dövlət dəstəyi tədbirlər sisteminin təsnifləşdirilməsini ölkəmizin reallığına tətbiq edə bilərik. “Mavi səbət” Azərbaycanın kənd təsərrüfatı üçün aktual deyil, çünki aqrar siyasətin və onun tərkib hissəsi olan dövlət dəstəyinin məqsədi kənd təsərrüfatında ümumi məhsul istehsalının artırılması və özünütəminetmə səviyyəsinin yaradılmasıdır. Bu səbəbdən də Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalının məhdudlaşdırılması siyasəti həyata keçirilmir. Ancaq kənd təsərrüfatının dövlət dəstəyi tədbirlərini “sarı və yaşıl səbət”lər üzrə təsnifləşdirsək çox maraqlı bir vəziyyət yaranır. Belə ki,

subsidiyalar və sosial ödənişlər, məhsul və xidmətlərin satın alınması və əməyin ödənişinə yönələn xərclər dövlət büdcəsindən kənd təsərrüfatına ayrılan xərclərin 93%-ni təşkil edir. Qeyri-maliyyə aktivlərinin yaradılmasına yönələn birbaşa investisiyalar isə cəmi 7%-ə bərabərdir. Aparılan təsnifləşdirmədən belə nəticə çıxara bilərik ki, dövlət büdcəsindən kənd təsərrüfatına dəstək məqsədi ilə tədbirlərin görülməsinə ayrılan vəsaitin 93%-ı “sarı səbət” tədbirlər qrupuna yönəlmişdir. “Sarı səbət” qrupuna aid olan tədbirlər isə ÜTT-nin təsnifləşdirilməsinə görə iqtisadi cəhətdən səmərəsi az olan tədbirləri əhatə edir. Kənd təsərrüfatında investisiya qoyuluşu vasitəsi ilə sahənin intensivləşdirilməsinə, yəni keyfiyyətcə dəyişməsinə nail olmaq üçün ilk növbədə “yaşıl səbət” qrupuna aid olan tədbirlər dövlətin apardığı aqrar siyasətdə ön plana çəkilməlidir.

Azərbaycanın kənd təsərrüfatı məhsulları istehsalı sahəsində aparılan vergi tətilləri siyasətini də “sarı səbət”-ə aid etmək olar. Çünki vergi istənilən iqtisadi subyekt üçün ilk növbədə onun istehsal xərclərinin tərkib hissəsidir. Vergi tətilləri siyasətinin məqsədi kənd təsərrüfatı istehsalçılarının xərclərini azaltmaqla gəlirlərini artırmaq və son nəticədə onu investisiyaya yönəltməkdir. Lakin reallıq ondan ibarətdir ki, yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın kənd təsərrüfatında istehsal olunan məhsulun 90%-i kiçik təsərrüfatlarda istehsal olunur. Kiçik təsərrüfatların ən böyük problemi müsbət miqyas effektinə nail olmağın mümkünsüzlüyüdür. Miqyas effekti əsasən təsərrüfatın həcmindən asılı olaraq yaranır. Müsbət miqyas effekti təsərrüfatın həcmi böyüdükcə orta istehsal xərclərinin azalması nəticəsində yaranır. Belə prosesə isə kiçik təsərrüfatlar çərçivəsində nail olmaq qeyri-mümkündür. Nəticədə vergi güzəştləri investisiya mənbəyinə çevrilmək əvəzinə əmanət formasında “təhlükəsizlik yastığı” kimi istifadə olunaraq qara gün üçün bəslənilir. Qısa desək, vergi güzəştləri reallığı təhrif edərək, investisiya mənbəyi əvəzinə özünüsığortalama mexanizminə çevrilib. Digər tərəfdən isə vergi güzəştlərinin mənfi tərəfi ondan ibarətdir ki, təsərrüfatlar vergi ödəmədiklərinə görə fəaliyyətləri barədə rəsmi dövlət orqanlarına heç bir hesabat təqdim etmirlər. Kiçik fermer təsərrüfatları üçün isə vergi hesabatlarının olmaması onların maliyyə savadsızlığı ilə nəticələnir və bu səbəbdən də bir çox hallarda aqrar sahədə aparılan dövlət siyasətinin mahiyyətini anlamaqda çətinlik çəkirlər. Vergi tətillərinin yaratdığı başqa bir problem isə kiçik təsərrüfatlar haqqında real statistik materialların olmamasından irəli gəlir və bu da yaranan real vəziyyəti elmi cəhətdən təhlil etməkdə çətinliklər yaradır. Hesab edirik ki, “vergi tətilləri” siyasəti “sarı səbət”in tədbirlər qrupuna aid olduğu üçün onun iqtisadi səmərəliliyi elə də böyük deyil. Klassik nəzəriyyənin əsas müddəalarından biri odur ki, vergi təkcə büdcə gəlirlərini təmin edən alət deyil, eyni zamanda iqtisadiyyatı tənzimləyən mexanizmdir. Bu nöqteyi-nəzərdən “vergi tətilləri” nəinki büdcə gəlirlərini təmin etmək funksiyasını yerinə yetirmir, həm də iqtisadiyyatı tənzimləyən mexanizm kimi öz mahiyyətini itirir. Fikrimizcə, kənd təsərrüfatında aparılan vergi siyasətini “sarı səbət”-dən “yaşıl səbət”-ə keçirmək lazımdır. Bunun üçün “vergi tətilləri” siyasətini “vergi güzəştləri” siyasəti ilə əvəz etmək lazımdır. Təklif etdiyimiz vergi güzəştləri siyasətinin əsas məqsədi kənd təsərrüfatı məhsul istehsalçılarının gəlirlər ilə bağlı davranışını dəyişməkdir. Bunun üçün ilk növbədə ölkədə tətbiq olunan bütün vergilər kənd təsərrüfatı istehsalçılarına da şamil olunmalıdır. Lakin təsərrüfat subyektlərinin istehlak tələbatlarını ödəmək üçün mənfəətin əvvəlcədən təyin olunmuş müəyyən miqdarı vergidən azad olunur. Təyin olunmuş azadolma məbləğindən yerdə qalan mənfəətin bir hissəsi və ya hamısı investisiya qoyuluşuna sərf olunursa, həmin hissə də vergidən tamamilə azad olunur. Bu siyasətin uğurlu olması üçün güzəştli vergi siyasəti gömrük vergiləri ilə əlaqələndirilməlidir. Çünki, əvvəldə qeyd edildiyi kimi, kənd təsərrüfatı innovasiyaları yaradan yox, qəbul edən sahədir. Müasir innovativ texnologiyalar əsasən inkişaf etmiş ölkələrdə yaradıldığı və istehsal olunduğuna görə onların Azərbaycanın kənd təsərrüfatında tətbiqi idxalın hesabına baş verir. Əlbəttə, bu, nəzəri cəhətdən irəli sürülən fikirdir. Onun konkret formada praktiki tətbiqi müəyyən tədqiqatlar tələb edir. Kənd təsərrüfatında aparılan belə vergi siyasəti eyni zamanda təsərrüfatları hesabatlar hazırlamağa və rəsmi orqanlara təqdim etməyə məcbur edəcək. Bu onların maliyyə savadlılığını artırmaqla bərabər, eyni zamanda kənd təsərrüfatında yaranmış real vəziyyəti elmi cəhətdən təhlil etmək üçün zəruri olan statistik baza yaradacaqdır. Fikrimizcə, belə vergi siyasəti kənd təsərrüfatında investisiyanın stimullaşdırılmasında

çox böyük əhəmiyyət kəsb edə bilər, çünki belə vergi siyasətində vergini ancaq "tənbəllər" ödəyəcək.

Nəticə

İnnovasiya yönümlü investisiya qoyuluşunun mənbələrinin və genişləndirilməsi istiqamətlərinin təhlilindən ümumiləşdirilmiş formada aşağıdaki nəticələrə gələ bilərik:

- Hazırda maliyyə bazarları Azərbaycanda çox zəif inkişaf etmişdir və bunun nəticəsi olaraq kənd təsərrüfatında investisiya mənbəyi kimi istifadə olunma imkanları çox məhduddur. Lakin dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, maliyyə bazarları kənd təsərrüfatında investisiya qoyuluşunun mühüm mənbələrindən biridir. Maliyyə bazarlarının inkişafı eyni zamanda investisiya mənbələrinin şaxələndirilməsi deməkdir;
- Xarici investisiya maliyyə mənbəyi kimi, demək olar ki, Azərbaycanın kənd təsərrüfatında heç bir rolu yoxdur. Bu hal ilk növbədə sahənin yüksək riskli və gəlirlərinin aşağı səviyyəsi ilə izah olunur. Qeyd edək ki, belə vəziyyət təkcə Azərbaycan üçün xarakterik deyil, demək olar ki, inkişaf etməkdə olan bütün ölkələr üçün səciyyəvi hal daşıyır. Bu istiqamətdə əhəmiyyətli dəyişikliklərə nail olmaq üçün xarici investorlar üçün elə bir münbit investisiya şəraiti yaradılmalıdır ki, onlara olunan təkliflərdən imtina edə bilməsinlər;
- Dövlət büdcəsi vasitəsi ilə həyata keçirilən xərclərin tərkibində birbaşa investisiyaların payı çox azdır. Dövlət xərclərinin böyük hissəsinin "sarı səbət" tədbirlər qrupuna ayrılması səbəbindən, bu xərclər ilk növbədə məhsulun qiymətinin və istehsal xərclərinin dəstəklənməsinə yönəlir və müvafiq olaraq fermerlərin gəlirlərinin tənzimlənməsi məqsədi güdür. İqtisadi nöqteyi-nəzərdən belə xərclərin iqtisadi səmərəliliyi minimaldır;
- İnvestisiya qoyuluşunun maliyyə mənbələrinin genişləndirilməsi üçün "vergi tətilləri" siyasətindən "güzəştli vergi" siyasətinə keçilməsi zəruridir.

Fikrimizcə, tədqiqatdan əldə olunan nəticələrin həyata keçirilməsi ölkənin kənd təsərrüfatında innovasiya prosesinin dinamikasına və investisiya qoyuluşlarının mənbələrinin genişləndirilməsinə müsbət təsir göstərə bilər.

ƏDƏBİYYAT

1. 2022-ci il üzrə qiymətli kağızlar bazarının əsas göstəriciləri. AR Mərkəzi Bankı. Kapital Bazarı statistik hesabatları.2023. https://www.cbar.az/page-190/capital-market
2. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat.2022
3. Azərbaycanın Statistik Göstəriciləri. 2022. Statistik məcmuə / tər. ed. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, −Bakı: Rəsmi nəşr, −2022. −748 s.
4. Azərbaycanın Kənd Təsərrüfatı. 2022. Statistik məcmuə / tər. ed. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, −Bakı: Rəsmi nəşr, −2022. −774 s.
5. Statistik Bülleten.2022. Statistika departamenti. / tər. ed. Azərbaycan Respublikası Mərkəzi Bankı, −Bakı, −2022. −93 s.
6. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/agriculture/
7. Цена на фермы в Турции в 2022 году. Информация об инвестициях в сельское хозяйство Турции/ imtilak. net/13.01.2022/ https://www.imtilak.net/ru/amp/turkey/articles/prices-farms-turkey-opportunities-agricultural-investment-tourism
8. Agriculture Orientation Index for Government Expenditures. URL: https://sdg.tracking-progress.org/indicator/2-a-1-agriculture-orientation-indexfor-government-expenditures-2/ 09.03.2021
9. Andrade, C. M. et al. (2020) Increased circulation time of Plasmodium falciparum underlies persistent asymptomatic infection in the dry season. Nature Medicine, 26, pp. 1929-1940. (doi: 10.1038/s41591-020-1084-0)

10. Clancy, M.S. et.al. (2019). The Roots of Agricultural Innovation: Evidence from Patents. University of Chicago Press (2019).
11. De Abreu, E. (2017), Examining the Influence of Foreign Direct Investment on Economic Growth in South Africa. Doctoral Dissertation. University of Pretoria. Available from: https://repository.up.ac.za/ handle/2263/59811 [Last accessed on 2017 July 10])
12. Fani, D.C.R., Chioma, A.G., Henrietta, U.U., Ngo, N.V., Odularu, G.,Emmanuel, O.N. (2020), Maximizing agricultural growth policy space through public expenditures and foreign direct investment in Cameroon (1985-2016). In: Nutrition, Sustainable Agriculture and Climate Change in Africa: Issues and Innovative Strategies. Berlin: Springer Nature. P.133-155
13. Garcia-Alvarez-Coque, J.-M. et.al. (2012). Territory and innovation behaviour in agri-food firms: Does rurality matter? Journal of “New Medit” 12(3). P.25
14. Gamito, T.M., Madureira, L. Shedding light on rural innovation: Introducing and applying a comprehensive indicator system (2019). Regional Science Policy & Practice. https://doi.org/10.1111/rsp3.12167
15. Knudson, W. Entrepreneurship and innovation in the Agri-Food System. American Journal Agricultural Economics. 86 (Number 5, 2004): 1330-1336. URL: https://www.jstor.org/stable/3697949
16. Lowder, S., Carisma, B., Skoet, J. (2012), Who Invests in Agriculture and How Much. Rome: FAO
17. Masamba, K. (2017), An Analysis of the Impact of Foreign Direct Investment on the Banking Sector in South Africa. Doctoral Dissertation. University of Cape Town
18. Mbiakop W.D. et al., (2023), The Impact of Public Agricultural Spending on Foreign Direct Investment Inflows in Agriculture in South Africa: An ARDL Analysis,76
19. “USAID invested $5.5 M in Azerbaijani agriculture”16.12.2019 URL: https://en.azvision.az/news/116920/news.html

Махаррам Джалал оглы Гусейнов
доктор экономических наук, профессор, Азербайджанский Государственный Аграрный Университет
m.huseynov@adau.edu.az

Эльчин Ариф оглы Салахов
д.ф.э.н., доц. Азербайджанский Государственный Аграрный Университет
elchin.salahov@adau.edu.az

Нияз Низами оглы Мамедов
д.ф.э.н., доц. (и.а.о.), Азербайджанский Государственный Аграрный Университет
niaz.mammadov.30161@adau.edu.az

Гульчин Мардан кызы Тахирова
Acc., Азербайджанский Государственный Аграрный Университет
gulchin.tahirova@adau.edu.az

Роль финансовых источников инвестиций в сельское хозяйство и направления их расширения

Цель исследования- исследование текущего состояния источников финансирования инвестиционных вложений в аграрный сектор, определение направлений их расширения и проблем, возникающих в этом направлении.

Методология – факты, собранные авторами из разных источников, были сгруппированы по их однородным характеристикам, и был проведен конкретный анализ этих данных с использованием разных методов.

Значимость исследования- достаточные источники инвестиций могут сыграть ключевую роль в обеспечении экономической и продовольственной безопасности в аграрном секторе, конкурентоспособности производства и увеличении доходов сельхозпроизводителей.

Результаты исследования - Результаты, полученные в результате исследования, могут оказать положительное влияние на динамику инновационного процесса в сельском хозяйстве страны и расширение источников инвестиционных вложений.

Оргинальность и научная новизна исследования - В этом исследовании были проанализированы источники инвестициционных вложений в сельское хозяйство в их взаимосвязи, и были выдвинуты конкретные предложения путем исследования существующих проблем. Научная инновация – это изучение иностранных инвестиций как играющего ведущую роль в освоении новых технологий, направляющего государственные расходы на инвестиции, и вовлекающего в этот процесс финансовые рынки, помимо его роли как источника финансов.

Ключевые слова: иностранные инвестиции, государственные расходы, финансовые рынки, инновация, финансовые источники

Maharram Jalal Huseynov
Doctor of Economic Sciences, Professor,
Azerbaijani State Agrarian University
m.huseynov@adau.edu.az

Elchin Arif Salakhov
Doctor of Philology, Associate Professor
Azerbaijani State Agrarian University
elchin.salahov@adau.edu.az

Niyaz Nizami Mamedov
Doctor of Philology, Associate Professor (acting a.o.),
Azerbaijan State Agrarian University
niaz.mammadov.30161@adau.edu.az

Gulchin Mardan Takhirova
Ass., Azerbaijan State
Agrarian University
gulchin.tahirova@adau.edu.az

The role and expansıon dırectıons of fınancıal sources for ınvestments ın agrıculture

Summary

Research Objective - The aim of the research is to investigate the current status of financial sources for investments in the agricultural sector, identify directions for their expansion, and determine the problems arising in this direction.

Methodology - Facts collected by various authors from different sources were grouped according to homogeneous characteristics, and these data were analyzed through various methods.

Significance of the Research - Adequate investment sources can play a key role in ensuring economic and food security, facilitating competitive production, and increasing the income of agricultural producers.

Research Results - The results obtained from the research can have a positive impact on the dynamics of the innovation process in the country's agricultural sector and the expansion of investment sources.

Originality and Scientific Innovation of the Research - In this research, the sources of investment in agriculture were analyzed in mutual relation, and specific solutions were proposed by investigating existing problems. Scientific innovation includes the study of the leading role of foreign investments as a financial source, their contribution to the adoption of new technologies, the direction of budget expenditures towards investment, and the attraction of financial markets to this process.

Key words: foreign investment, government expenditures, financial markets, innovation, financial sources.